# Bir ocağın istisi



**Tale elə gətirib ki, mən XX əsrin əvvəllərinin məşhur neft milyonçuları Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev ailələrinin ocağında dünyaya göz açmışam. Babalarımın əldə etdikləri maddi sərvət, ucaltdığı binalar, saysız-hesabsız neft buruqları vaxtilə müsadirə olunmuşdur.**

Lakin insan üçün ən ali və əbədi mükafat - xeyirxah insan və mesenat titulları üstlərindən götürülməmiş, gələcək nəsillərə bir örnək və nümunəyə çevrilmişdir.

Belə bir məşhur kəlam var:""Dünya yaxşılardan, xeyirxahlardan xali deyil". Xeyirxah işlərinə görə adları hər zaman böyük məhəbbət və hörmətlə çəkilən insanlardan məşhur bəstəkarımız Üzeyir bəy Hacıbəyovu və xalq şairi Səməd Vurğunu xatırlamaq istərdim. Mənbələrdən məlumdur ki, Üzeyir bəy yazdığı əsərlərə görə aldığı qonorarları uşaq evlərinə, kimsəsizlərə, tələbələrə verərmiş. Onun görkəmli bəstəkarlarımız Ağabacı Rzayevanı və Şəfiqə Axundovanı öz hesabına oxutdurması da məlum faktdır.

Deyilənlərə görə, xalq şairimiz Səməd Vurğun bir dəfə Moskvada şaxtalı bir gündə azərbaycanlı tələbəni küçədə yüngül geyimdə görmüş, öz paltosunu əynindən çıxarıb ona bağışlamışdır. O, Moskvada oxuyan və ehtiyacı olan azərbaycanlı tələbələrə maliyyə yardımı edərmiş, aparıb onları yedirdərmiş.

Bu cür xeyirxah yolun davamçılarından biri də görkəmli yazıçı, ziyalı, gözəl povestlər və roman müəllifi, öz ocağının istisini digərləri ilə paylaşdıra bilən Mir Cəlal Paşayev idi. Belə bir kəlam var: "Əl tutmaq Əlidən qalıb" (İmam Əli nəzərdə tutulur). Bu müdrik kəlamın ideyasını özünə bayraq edərək, ödədiyindən ödənc gözləməyən, etdiyi yaxşılıqları saya-hesaba gəlməyən, ürəyiaçıq, səmimi bir insan portreti gözümüzün önünə gəlir. Onu tanıyan, onunla ünsiyyətdə olmuş çoxsaylı insanlar üçün o, sadə, təvazökar və xeyirxah adam, əsl ziyalı olub. İstedadlı tələbələrinə yol göstərən bu nəcib müəllim öz evinin qapılarını həmişə onların üzünə açıq edib, onlara maddi köməklik göstərib. Şair Nəriman Həsənzadəyə məhz özü üçün ayrılmış mənzilin açarını bağışlaması da cəmiyyətimizə məlumdur.

Çoxsaylı jurnalist, redaktor və nəşriyyat işçiləri (mən də bu cərgəyə mənsub olduğum üçün özümü xoşbəxt sanıram) Azərbaycan Dövlət Universitetinin (indiki BDU) professoru, mətbuatımızın ağsaqqalı, gözəl insan Nəsir müəllimi yaxşı tanıyırlar. Onun milli mətbuatımızın inkişafı, jurnalist kadrların yetişdirilməsi sahəsində əvəzsiz xidmətləri olmuşdur. 30 il fasiləsiz rəhbərlik etdiyi "Bakı" və "Baku" qəzetlərinin fəaliyyəti xalqımızın mədəni səviyyəsinin yüksəlməsinə və azərbaycançılıq ideologiyasının



təbliğinə, obyektiv informasiya tələbatının ödənilməsinə yönəlmişdi. "Zaman atdan düşəndə" də tarix irəliyə doğru gəmi və su yolu ilə hərəkət edirdi, "Bakı" qəzeti heç bir axara qoşulmadan öz məhvərində davam edirdi. Bu sükanın arxasında mənalı ömür yolu keçmiş, görkəmli bir şəxsiyyət - Nəsir İmanquliyev dururdu.

Vaxtilə böyük babam Ağa Musa Nağıyev demişdi ki: "Tikdim ki, izim qalsın". Nəsir müəllim isə "Qurdu ki, izi qalsın". Onun qurucusu olduğu "Bakı" və "Baku" qəzetləri onun şah əsəri idi. Əslində isə onun şah əsəri onun ailəsi, gözəl övladı - zahirən gözəl, daxilən böyük alim, Şərq qadınının təcəssümü Aida xanım İmanquliyeva və mehriban nəvələri idi.

Tarixin, xalqının yaddaşında dərin iz salmaq, qədirbilənlər tərəfindən tez-tez xatırlanmaq çox az şəxsiyyətlərə nəsib olur. Nəsir müəllimin adı əbədi yaşayacaq və yaddaşlarda xeyirxah əməllər və nurlu ideyalar sahibi kimi qalacaq.

Və təsadüfi deyil ki, məhz belə bir şəxsiyyətin övladı Tanrının ona bəxş etdiyi istedadın, kamilliyin, gözəlliyin işığını xalqımızın və elmimizin üstünə salmışdı. Ərəb dünyasını geniş tədqiq edən Aida xanım İmanquliyeva sanki əsərləri ilə bu dünyada özünə də bir abidə qoydu. Nəsir müəllim Azərbaycan mətbuatının bünövrəsini qoyanlardan biri idisə, professor Aida xanım Azərbaycanda ərəb ədəbiyyatşünaslığının təməlini qoyan ilk alim qadın idi. Onun ömür yolu ailəsinin xoşbəxtliyini qoruyan, onun vəhdətinə can atan bir insan idrakının, bir ana, bir qadın ruhunun təcəssümü olmuşdur.

Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunurdu ki, bu da gələcəkdə yeni Şərq ədəbiyyatının tədqiqi üçün zəmin yaradırdı. Bu şərqşünas-alim öz yaradıcılığında Azərbaycan milli özünədərkinin qorunub saxlanılması və inkişafı idealına sadiq qalmış, Şərqin ədəbi-fəlsəfi yaşantısına aydınlıq gətirmişdi.

Qədimlərdə müqəddəs kitabları əzbər bilənlərə ilahi qüdrətli insanlar kimi hörmət göstərilərdi. "Quran" hafizləri xalqın gözünün işığı idi. Tanrı Aida xanıma elə bir yaddaş, elə bir hafizə bəxş etmişdi ki, o nəinki Müqəddəs kitabımızın, hətta bütün ərəb dünyası ədəbiyyatının görkəmli tədqiqatçılarından birinə çevrilmişdi.



Hissin və düşüncənin, müdrikliyin və uzaqgörənliyin, Vətən, torpaq sevgisinin və ilahi eşqin işığında qələmə aldığı əsərləri ilə hələ ötən əsrin 70-80-ci illərində sərhədlərin qapalı olduğu dövrdə bu ziyalı vətəndaş, görkəmli alim öz sözünü demişdi. 70-dən artıq elmi məqalələr, 3 sanballı monoqrafiya dediklərimə əyani sübutdur. Milli Elmlər Akademiyasının "Elm" nəşriyyatında çalışdığım dövrdə bu əsərlərin nəşrində ona etdiyim kiçicik kömәkləri bu gün fəxrlə yada salıram.

Elmi ədəbiyyat genlərin insan həyatındakı böyük rolunu dəfələrlə təsdiqləyib. Mir Cəlal Paşayev və Nəsir İmanquliyev kimi böyük şəxsiyyətlərin nəvələri olmaq xoşbəxtliyini bu gün Mehriban xanımın və Nərgiz xanımın timsalında görürük.

Bu gün Azərbaycan elminin, incəsənətinin inkişafı üçün çox işlər görmüş, ziyalı, alicənab, elmi qiymətləndirmək bacarığına malik olan Nərgiz xanım Paşayeva filologiya elmləri doktoru, professordur. O, öz incə, zərif, kövrək çiyinlərində ağır elm yükü daşıyır. Moskva Dövlət Universitetinin Bakı filialı kimi nüfuzlu elm ocağının rektoru, BDU-nin Müdafiə Şurasının sədri, "Üns" teatrının yaradıcısı olan Nərgiz xanım, həqiqətən də, milli-mənəvi dəyərlərimizin inkişafı üçün çox işlər görür. Onun gənc alimlərin yetişməsində böyük rolu var. Gənclərimizə möhkəm bilik aşılayan Nərgiz xanım bir tərəfdən elmin inkişafına təkan verir, digər tərəfdən isə mədəniyyətimizin təbliğ olunmasına, dünya xalqları mədəniyyəti ilə əlaqələrin genişlənməsinə şərait yaradır.

Bu da faktdır ki, uzun illər bəlkə də unudulmuş bir sıra milli dəyərlərin yenidən gündəmə gəlməsinə, təbliğinə, yaşadılmasına diqqətin artırılması, məhz, onun fəaliyyəti ilə bağlıdır.

Nərgiz xanım Paşayeva bir filoloq kimi Azərbaycan ədəbiyyatşünaslığının inkişafında, yeni ədəbi-nəzəri düşüncənin formalaşmasında özünəməxsus yer tutur. Bütün bunlar isə səbəbsiz deyil, "ot kökü üstə bitər" deyirlər. Bir tərəfdən yazıçı-ədib ocağı, digər tərəfdən isə elm ocağı olan Paşayevlər ailəsində boy atmaq bütün mətləblərə aydınlıq gətirir.

Deyirlər ki, dağın yanında dayanarkən onun böyüklüyünü, əzəmətini lazımınca görüb, duya bilmirsən. Lakin aralandıqca, buludlara qovuşan zirvəsini seyr etdikcə onun necə qüdrətli, məğrur olduğunu dərk edirsən.

Böyük və nüfuzlu ölkələrə səfərlərində cənab Prezidentimizlə çiyin-çiyinə addımlayan, Azərbaycanımızın şöhrətini dünyaya yaymaqda, onu tanıtmaqda İlham Əliyev cənablarının yaxın köməkçisi - Heydər Əliyev fondunun Prezidenti, YUNESKO və İSESKO kimi nüfuzlu beynəlxalq təşkilatların xoşməramlı səfiri, Azərbaycan Bədii Qimnastika Federasiyasının prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın misilsiz xidmətləri danılmazdır.

Bəli, budur qüdrət, budur məğrurluq,budur nəcib insanlar ocağı!

Uzun illər Respublikamıza bütün varlığıyla xidmət edən Ulu öndərimizin və Əziz Əliyev kimi şəxsiyyətin yadigarı, Azərbaycan oftalmologiya elminin banisi, nəcib insan Zərifə xanımın müqəddəs ocağının gəlini başqa cür ola da bilməzdi. Genetik kodları və gənc yaşlarından bu mehriban ailədə formalaşması onun intellektual və nəcib keyfiyyətlərini daha da mükəmməlləşdirdi, onu yeni əsrin - XXİ əsrin Sara xatununa, Xurşidbanu Natəvanına çevirdi.

Həyatda ən çətin məsələ nümunə yaratmaqdır ki, ondan minlərlə insan bəhrələnsin. Məhz elə bu Mehriban xanıma qismət olub. O, təhsilə, mədəniyyəti-





mizə, səhiyyəmizə, yaşlılara və uşaqlara himayə göstərmək nümunəsi yaradıb, bu istiqamət xeyriyyəçilik, mərhəmətçilik duyğusunu formalaşdırır ki, bu da xalq tərəfindən rəğbətlə qarşılanır. Qısa bir zaman kəsiyində yüzlərlə müasir tipli məktəblərin tikilməsi, yeni texniki avadanlıqlarla təchiz edilməsi elm və maarifin inkişafı üçün möhkəm zəmin yaradır. Muğam janrının böhran keçirdiyi bir dövrdə yaratdığı "Beynəlxalq muğam mərkəzi" müdrik bir addım, milli-mənəvi dəyərlərimizə qayıdış deməkdir, əsl vətəndaş mövqeyidir. Onlarla xəstəxana, uşaq bağçalarının yenidən qurulması onun adıyla bağlıdır.

Ulu öndərimiz Heydər Əliyev cənabları ömrü boyu milli-mənəvi dəyərlərimizin mühafizəsini, tarixi köklərimizə sadiq olmağı xalqa tövsiyə edirdi. Bu vəsiyyəti müqəddəs bir miras kimi bu gün Heydər Əliyev fondunun Prezidenti Mehriban xanım Əliyeva qoruyur və yaşadır.

Yaşımın ixtiyar çağında bu Fonddan mənə düşən təminata görə Ulu öndərimizin ruhuna dua edir, onun davamçısına isə öz minnətdarlığımı bildirirəm. Bu məqaləni də yazmağım təsadüfi deyil. Mənim babalarım Bakı şəhərini bina-bina, ev-ev qurdular. Bu qədirbilən, nəcib ailə isə mədəniyyətimizi, elmimizi kitab-kitab yaradır, dövlətçiliyimizi, müstəqilliyimizi qoruyurlar.

Elə bilirəm ki, Musa Nağıyev və Şəmsi Əsədullayev ailələrinin nümayəndəsi kimi nəsli dünyaya pərən-pərən səpələnmiş, Fransadan səsi gələn Mirzə Əsədullayevin (1918-1920-ci illər ADR dövründə ticarət və sənaye naziri, "Bakı-Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri və Parlamentin üzvü olub), qızı - məşhur yazıçı Ümbülbani Nağıyeva-Əsədullayevanın, Ulu öndərimizin dəvəti ilə dəfələrlə Azərbaycanda qonaq olan Züleyxa xanım Əsədullayeva-Veberin, nənəm Xədicə xanım Əsədullayeva-Nağıyevanın və nakam atam Murad Nağıyevin adından mənim babalarımın qurduğunu inkişaf etdirənlərə təşəkkür etmək haqqım var.

**Prezidentimiz İlham Əliyev cənabları hazırda dünyada tanınmış və sayılan liderlər sırasındadır. Ölkə Prezidentinin şəxsiyyətinin ucalığı bizim hər birimizin, qüdrətli Azərbaycan torpağının ucalığı və yenilməzliyidir. Əminəm ki, biz bu ucalığın əzəmətini torpaqlarımızın işğaldan azad olacağı gündə daha möhtəşəm və qüdrətli görəcəyik.**

**• Ofelya İSMAYILOVA,**
***AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı***